AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**CEM SÖKER AHMET oğlu**

# TÜRKIYƏ VƏ AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRINDƏN ISTIFADƏ ETMƏKLƏ MƏKTƏBLILƏRIN BƏDII YARADICILIQ QABILIYYƏTLƏRININ FORMALAŞDIRILMASI

5804.01 – ümumi pedaqogika,  pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Ümumi pedaqogika" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Fərahim Balakişi oğlu Sadıqov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: **Zahid Abdulla oğlu Xəlilov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Sevda Sultan qızı Tağıyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Sosial elmlər" kafedrası

Müdafiə « 13 » dekabr 2016-cı il tarixdə saat $16^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** Az- 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat « ___ » noyabr 2016-cı ildə göndərilmişdir.

Dissertasiya şurasının
elmi katibi: **K.R.Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru,

dosent

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dissertasiya mövzusunun aktuallığını əsaslandıran bir sıra cəhətlər vardır. Onlardan birincisi Azərbaycan Respublikasının müstəqillik qazandığı illərdə Azərbaycanın Türkiyə ilə əlaqələrinin bərpa olunması və bu illər ərzində hər iki dövlət arasında mövcud olan elmi, pedaqoji, mədəni əlaqələrin inkişaf etdirilməsi səbəbindən şərikli tədqiqatların aparılmasına və müştərək elmi kadrların hazırlanmasına hərtərəfli şəraitin yaradılmasıdır. Böyük Öndər, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlətik" fikirlərini təsdiq edən, bu fikirlərin gerçəkliyini gücləndirən, reallaşdıran belə əlaqələrdən biri də Türkiyə və Azərbaycan ədəbi-bədii əlaqələrini özündə səciyyələndirən folklor nümunələrinin oxşar cəhətləridir. Türkiyə və Azərbaycan folkloru nümunələrinin birgə imkanlarından istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yeni insan tərbiyəsinin ən başlıca amillərindən hesab olunur. Bu amillər isə mövzunun aktuallığını əsaslandıran ən vacib şərtlərdən sayılır.

Mövzunun aktuallığını əsaslandıran şərtlərdən biri də məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılaraq formalaşdırılmasına göstərilən dövlət qayğısıdır.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının prezidenti möhtərəm İlham Əliyev Cənablarının 17 aprel 2006-cı il tarixdə imzaladığı "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" adlı direktiv sənədin qəbul edilməsində əsas məqsəd "...Respublikanın ümumtəhsil müəssisələrində mövcud olan istedad potensialının vaxtında müəyyənləşdirilib onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər həyata keçirməkdən, ölkə ictimaiyyətinin diqqətini bu vacib məsələnin, istedadlı uşaq və gənclərin inkişafına dövlət qayğısını gücləndirməkdən ibarətdir". Əslində orta ümumtəhsil müəssisələrində istedadlı uşaqlarını folklora meyil etmələri, folklor nümunələrinin ifasına maraq göstərmələri onların istedad səviyyələrinin müəyyən edilməsində həm də meyar rolunu oynayır. Ona görə də folklor nümunələri əsasında uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması mühüm aktuallıq kəsb edir. Nəzərə alsaq ki, Azərbaycan hökumətinin folklor nümunələrinin hüquqi qorunması ilə bağlı qanun qəbul etməsi və hətta həmin qanunun icra edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Cənablarının 29 yanvar 2004-cü il tarixli fərmanının olması tədqiq etdiyimiz mövzunun aktuallığını daha da artırmışdır. Bütün bunlar

onu göstərir ki, yetişən nəslin yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsi, istedadlı uşaqların üzə çıxarılması müasir məktəbin qarşısında da mühüm vəzifələr qoyur. Əslində bu vəzifələrin həlli işində məktəb rəhbərlərilə yanaşı fənn müəllimləri, dərsdən və məktədənkənar tədbirlərə, bədii yaradıcılıq dərnəklərinə və maraq kurslarına rəhbərlik edənlər daha böyük məsuliyyət daşıyırlar. Məhz onların rəhbərliyi altında uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması onların şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsini təmin etmiş olur. Bunun üçün Türkiyə və Azərbaycan folklorunun birgə imkanlarından istifadə edilməsinin səmərəli olması şübhə doğurmur. Ona görə ki, Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə uşaqlar aşağıdakı bir sıra yaradıcı qabiliyyətlərə yiyələnmiş olurlar:

1. Azərbaycan, Türkiyə folkloru nümunələrilə tanış olan uşaqlar ümumtürk mədəniyyətinə əsaslanan yaradıcı qabiliyyətlər qazanırlar.
2. Azərbaycan və Türkiyə folklorunun oxşar nümunələrilə tanış olan yeniyetmə və gənclərin ümumtürk mədəniyyətinə olan məhəbbətlərini bədii yaradıcılıq nümunələri vasitəsilə ifadə etmələri onların bir sıra istedadlılıq səviyyəsinin üzə çıxmasına şərait yaratmış olur.
3. Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə edən yeniyetmə və gənclərin bu nümunələrə yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən milli və ümumbəşəri dəyərlər səviyyəsində yanaşmaları onların hərtərəfli inkişafını təmin etmiş olur.
4. Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə bədii yaradıcılıq qabiliyyətləri inkişaf edən yeniyetmələrin və gənclərin estetik, bədii zövqləri günün tələbləri səviyyəsində inkişaf etmiş olur.
5. Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə bədii yaradıcılıq qabiliyyətləri inkişaf etmiş məktəblilərin bir tərəfdən təlimə olan maraqları artmış olursa, digər tərəfdən onların asudə vaxtlarının səmərəli təşkilinə şərait yaranmış olur.
6. Türkiyə və Azərbaycan folkloru nümunələrinin birgə imkanlarından bəhrələnən məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə yanaşı onların üçrəngli bayrağın türkçülüyü özündə əks etdirən rəmzi mənasına olan ehtiramlarını yüksəltmiş olur.
7. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin tədqiqinə zəruri ehtiyac yaranır. Bu zərurət də tədqiqat probleminin aktuallığını artıran cəhətlərdən biri hesab olunur.

Problemin estetik tərbiyə baxımından əhəmiyyətilə bağlı fikir söyləyən Azərbaycan alimləri içərisində Mehdi Mehdizadəni, Mərdan

Muradxanovu, Əliheydər Həşimovu, Ələkbər Məmmədovu, Yuli Əliyevi, Vidadi Xəlilovu, Oqtay Rəcəbovu, Fərahim Sadıqovu, Tükəzban Cahangirovanı, Sabir Quliyevi, Nəcməddin Məlikməmmədovu, Tamilla Kəngərlinskayanı və başqaların göstərmək olar. Lakin bunlardan heç biri Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yolları, imkanları və istiqamətləri barədə fikir söyləməmişlər. Türkiyə Cümhuriyyətində tədqiq etdiyimiz problemin bəzi istiqamətləri üzrə tədqiqat aparan alimlər vardır. Onlardan Ali Abbas Çinar, Şükrü Elçin, Alhan Altan Araslı, Günay Karaağac, Halil Açıqgöz, Halil Ersoylu, Haluk Akalın, Ahmet Edip, Hamide Demirel, Hevzad Kosoğlu, Feridun Elper, Amil Çelebioğlu, Baheddin Ögül, Erman Aztun, Mustafa Arslanoğlu kimi tədqiqatçıların əsərlərində məktəblilərin estetik-bədii tərbiyəsinin inkişafı üçün dəyərli məqamlar olsa da, Türkiyə və Azərbaycan folklorunun birgə imkanlarından istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı elmi-pedaqoji ideyalar yoxdur. Bunları nəzər alaraq biz tədqiqatımızı "Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması" probleminə həsr etmişik.

**Tədqiqatın obyekti** – məktəblilərin bədii yaradıcılıq qabiliyyətinin formalaşdırılması prosesidir.

**Tədqiqatın predmeti** təlim prosesində, dərsdən və məktəbdənkənar tədbirlərdə Azərbaycan və türk folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin formaları, imkan və yollarıdır.

**Tədqiqatın məqsədi** Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırmağa xidmət edən işin modern modelini yaratmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsini** aşağıdakılar təşkil edir:

- Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üzrə işin mahiyyəti, məzmunu, məqsədi, vəzifələri, əsas istiqamətləri düzgün müəyyənləşdirilərsə, elmi cəhətdən əsaslandırılarsa;
- Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üzrə işin pedaqoji-psixoloji əsasları düzgün müəyyənləşdirilərsə;
- bu sahədə məktəb təcrübəsi öyrənilib ümumiləşdirilərsə;
- məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üzrə işin nəzəri və praktik modeli hazırlanarsa;

- təlim prosesində Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması yolları müəyyənləşdirilərsə;
- dərsdən və məktəbdənkənar tədbirlərdəTürkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi yolları müəyyənləşdirilərsə;
- Türkiyə və Azərbaycan folkloru nümunələrinin birgə imkanlarından məktəblilərin estetik və bədii zövqlərinin inkişaf etdirilməsi üzrə işin sistemi modernləşdirilərsə, məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına nail olmaq olar.

Qarşıya qoyulan məqsəd və iş fərziyyəsinə əsasən tədqiqatın ən zəruri vəzifələri də müəyyənləşdirilmişdir. Onların aşağıdakılardan ibarətdir;

- Türkiyə və Azərbaycan folklorundan istifadə qaydasını açıqlamaq;
- Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadənin birgə imkanlarının mahiyyətini açıqlamaq;
- məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin növlərini və onların aşkara çıxarılması yollarını müəyyənləşdirmək;
- Türkiyə və Azərbaycan folklorunun janrları içərisində məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılmasına kömək edən nümunələrin seçilməsi və tətbiqinin imkanlarının üzə çıxarılması;
- Problemin elmi-pedaqoji ədəbiyyatdakı qoyuluşunun vəziyyətini öyrənmək;
- Problemin ümumtəhsil məktəblərində və məktəbdənkənar tərbiyə müəssislərindəki real vəziyyətini öyrənib ümumiləşdirmək;
- ədəbiyyat, təsviri incsənət, musiqi və xarici dil (ingilis dili) dərslərində Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yollarını müəyyənləşdirərək nəzəri və praktik əsaslarını işləmək;
- dərsdən və məktəbdənkənar tədbirlərdə Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı modern iş sistemi yaratmaq, bu iş sisteminin nəzəri və praktik əsaslarını işləmək.

**Tədqiqatın metodoloji** əsasını pedaqoji faktlar, hadisələr və proseslərin araşdırılaraq öyrənilməsi, dərk edilməsi, zəruri hallarda dəyişdirilməsi məqsədilə tətbiq edilən nəzəri müddəaların, metodların və vasitələrin məcmusu təşkil edir:

Tədqiqat prosesində aşağıdakı **metodlardan** istifadə olunmuşdur:

1. **Nəzəri təhlil və tərkib.** Problemin tədqiq olunma səviyyəsini daha müfəssəl aydınlaşdırmaq məqsədilə mövcud elmi, pedaqoji, psixoloji, sosioloji, fəlsəfi və metodik ədəbiyyat toplusu araşdırılmış, öyrənilmiş, təhlil edilərək ümumiləşdirilmişdir. Aparılan ümumiləşdirmələr isə müvafiq nəticələrin çıxarılmasını təmin etmişdir. Pedaqoji müşahidə, ədəbiyyat, təsviri incəsənt, musiqi və xarici dil (ingilis dili) dərslərində dərsdən və məktəbdənkənar tədbirlərdə müşahidələr aparılmış və məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı məktəb təcrübəsi öyrənilmişdir.

2. **Qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi**. Problemin ətraflı öyrənilməsi üçün orta ümumtəhsil məktəblərinin qabaqcıl iş təcrübəsinə müraciət olunmuş və müvafiq ümumiləşdirmələr aparılmışdır.

3. **Anket sorğusu**. Problemlə bağlı şəhər, rayon və kənd məktəblərinin 120-yə qədər müəllimi, dərsdən və məktəbdənkənar tədbirlərə rəhbərlik edən mütəxəssisləri və 1200-ə qədər şagirdləri ilə anket sorğusu keçirilmişdir.

4. **Pedaqoji eksperiment**. Elmi fərziyyənin doğruluğunu yoxlamaq məqsədilə 2015-2016-cı illərdə Gəncə şəhərinin 18 saylı, Mingəçevir şəhərinin 1 saylı tam orta məktəblərində eksperiment aparılmamışdır. Tədqiqat zamanı ekperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. İlk dəfə olaraq Türkiyə və Azərbaycan folkloru nümunələrinin birgə imkanlarından istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin sistemi yaradılmışdır. Məktəblilərin bədii yaradcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyətinə, məzmununa, nəzəri-praktik əsaslarına aydınlıq gətirilmiş, problemin nəzəri məsələləri işlənərək onun pedaqoji-psixoloji əsaslarının didaktik şərtlərinin müəyyənləşdirilməsi sistemə salınmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti**. Hazırlanan iş sistemi orta ümumtəhsil məktəblərinin fənn müəllimlərinə, dərsdən və məktəbdənkənar tədbirlərə rəhbərlik edənlərə Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işində müvafiq istiqamət verəcək və praktik köməklik göstərəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqat əsərində irəli sürülən elmi ideyalar, nəzəri müddəalar pedaqogika tarixini və nəzəriyyəsini zənginləşdirərək, şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin

formalaşdırılması Azərbaycan və Türkiyə folkloru nümunəsində tərbiyə örnəklərinə çevriləcəkdir.

**Müdafiəyə çıxarılan müddəalar.**

1. Məktəblilərin bədii yaradıcılıq qabiiliyyətlərinin formalaşdırılmasında Azərbaycan folkloru ilə yanaşı Türkiyə türklərinin folklor nümunələrindən istifadə edilməsi məktəblilərin estetik-bədii zövqlərini formalaşdırmaqla yanaşı onlarda ümumtürk ədəbiyyatı, mədəniyyəti, incəsənətilə bağlı elmi dünyagörüşünü də inkişaf etdirərək zənginləşdirir.

2. Təlim prosesində Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işi məsələnin pedaqoji-psixoloji əsaslarını dərindən öyrənməkdən, müqayisə üsullarından yerli-yerində istifadə etməkdən, yeni pedaqoji texnologiyaların və innovasiyaların gücündən istifadə etməkdən çox asılıdır.

3. Məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün təlim prosesilə yanaşı dərsdən və məktəbdənkənar tədbirlərin gücündən istifadə etməyə də ciddi ehtiyac duyulur. Bu məqsədlə fənn dərnəklərində, yaradıcı dramların təşkilində, maraq kurslarında, məktəb studiyalarında Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin şəxsiyyətyönümlülük səviyyəsini və hərtərəfli inkişafını təmin etmək olar.

**Tədqiqatın etibarlılığı**. Alınan nəticələrin etibarlılığına tədqiqatın metodoloji əsaslarına, predmetinə, məqsəd və vəzifələrinə uyğun olaraq seçilmiş tədqiqat metodları kompleksi, Azərbaycan və Türkiyə folkloru ilə bağlı seçilmiş materialların məcmusu üçün səciyyəvi sayılan empirik nümunələrin müəyyənləşdirilməsi və toplanılan didaktik materiallar toplusu təminat verir.

**Tədqiqatın aprobasiyası.** İddiaçı tədqiqatın əsas məzmununu bir sıra elmi məqalələrində, Naxçıvan MR-də keçirilən beynəlxalq konfransın materiallarında və xarici ölkədə çap olunan 1 məqalədə əks etdirmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya girişdən, 7 yarımfəsli özündə əks etdirən 2 fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı əsaslandırılmış və qoyulmuş problemin işlənmə səviyyəsi araşdırılmışdır. Tədqiqatın məqsədi və vəzifələri müəyyən edilmiş, işin elmi yeniliyi və təcrübi əhəmiyyəti formalaşdırılmışdır.

Birinci fəsil "**Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri**" adlanır. Bu fəslin ***"Problemin qoyuluşu"*** adlanan birinci yarımfəslində Türkiyə və Azərbaycan folklorunun birgə imkanlarından istifadə etməklə həyata keçirilən bədii yaradıcılıq işinin məzmunu öz əksini tapır. Yarımfəsildə Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin məzmunu açıqlanır. Burada qabiliyyətlər anlayışı, eləcə də pedaqoji prosesdə məktəblilərin yaradıcı qabiliyyətlərinin aşkara çıxarılmasının elmi-pedaqoji, metodik məzmunu da izah edilir. Yarımfəsil yekunlaşdırılarkən göstərilir ki, uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formaladırılması prosesinin düzgün təşkili onların hərtərəfli inkişafını təmin etmiş olar. Belə ki:

- uşaqların estetik-bədii zövqlərinin hərtərəfli inkişafı üçün zəmin yaranır;
- məktəblilərin yaradıcı qabiliyyətlərinin formalaşdırılması imkanları çoxalır;
- məktəblilərin bədii yaradıcılıq qabiliyyətləri milli və ümumbəşəri dəyərlərə və ümumtürk milli koloritinə əsaslanan bacarıq və vərdişlər əsasında formalaşır;
- bədii yaradıcılığa sövq edilən məktəblilərin əxlaqi-mənəvi keyfiyyətlərinin formalaşdırılması təmin edilmiş olur.

***"Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu"*** adlı yarımfəsildə dissertasiya əsəri ilə bağlı mövcud ədəbiyyat təhlilə cəlb olunur. Bu zaman öncə həm Azərbaycan, həm də Türkiyə şifahi xalq ədəbiyyatı nümünələrinə müraciət olunur. Yarımfəsildə Azərbaycan şəraitində problemlə bağlı aparılan tədqiqatların vəziyyətinin öyrənilərək ümumiləşdirilməsinə ayrıca yer verilir. Öncə folklor nümunələri ilə bağlı ədəbiyyatın təhlilinə diqqət verilir.

Qeyd etmək lazımdir ki, Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər toplanılan, çap olunaraq xalqın istifadəsinə verilən folklor nümunələrinin hamısında türkçülüyün, ümumtürk əxlaqının, adət-ənənələrinin izləri vardır. Mirzə Vəli Qəmərlinin, Mahmudbəy Mahmudbəyovun, Firidun bəy Köçərlinin, Teymur bəy Bayraməlibəyov kimi maarifçilərin çap etdirdikləri folklor nümunələrində bütün bunları görmək olar.

Yarımfəsildə həmçinin Türkiyə folklorunun tədqiqatçılarının fikirlərinə də müraciət olunur. Göstərilir ki, onlardan Ali Abbas Çinar, Şükrü Elçin, Alhan Altan Araslı, Günay Karaağac, Halil Açıqgöz, Halil

Ersoylu, Haluk Akal, Ahmet Edip, Hamide Demirel, Hevzad Kosoğlu, Feridun Elper, Amil Çelebioğlu, Baheddin Ögül, Erman Aztun, Mustafa Arslanoğlu kimi tədqiqatçıların əsərlərində məktəblilərin estetik-bədii tərbiyəsinin inkişafı üçün dəyərli məqamlar olsa da, Türkiyə və Azərbaycan folklorunun birgə imkanlarından istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı elmi-pedaqoji ideyalar yoxdur. Bunlar nəzərə alınaraq elmi-tədqiqat əsəri "Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması" probleminə həsr edilmişdir.

Haqqında danışılan fəslin üçüncü yarımfəsli ***"Problemin məktəb təcrübəsindəki qoyuluşu"***na həsr edilmişdir. Bu yarımfəsildə problemin həm təlim prosesində, həm dərsdən və məktəbdənkənar tədbirlərdə qoyuluşu təhlilə cəlb edilir. Bu zaman Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində həm V-IX, həm də X-XI siniflərin ədəbiyyat, təsviri incəsənət, musiqi dərslərində şagirdlərin bədii yaradıcılığa istiqamətləndirilməsi, onların bədii yaradıcılıq qurumlarına cəlb edilməsi, habelə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin vəziyyəti təhlil olunur. Yarımfəsildə həmçinin eksperimental işin müəyyənedici mərhələsi üçün faktlar toplanılaraq təhlil edilir. Yarımfəsildə göstərilir ki, müvafiq istiqamət və mərhələlər üzrə aparılan anket sorğularının nəticələrini araşdırıb təhlilə cəlb etdikdən sonra aydın oldu ki, Azərbaycanın orta ümumtəhsil məktəblərində ədəbiyyat dərslərini aparan müəllimlərin əksəriyyəti folklor materiallarından istifadə etdikləri halda, Türkiyə və Azərbaycan folklorunun birgə imkanlarından istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması ilə bağlı müsbət iş təcrübəsinə malik olan müəllimlər demək olar ki, yoxdur. Birinci istiqamət üzrə ilkin mərhələdə aparılan anket sorğularının nəticələri göstərdi ki, ədəbiyyat müəllimləri folklor materiallarından mütəmadi olaraq istifadə edirlər. Lakin həmin folklor materiallarını konkret olaraq hansı məqsədlər üçün istifadə etdiklərini düzgün planlaşdırmırlar. Birinci istiqamət üzrə ilkin mərhələdə aparılan sorğu anketinin nəticələrini əks etdirən cədvəli nəzərdən keçirsək, bunu aydın görmüş olarıq.

"Birinci istiqamət üzrə aparılan anket sorğusunun I mərhələsini göstərən cədvəl"də 150 suala cavab verən 50 müəllimin cavablarının səviyyəsi öz əksini tapmışdır:

**Birinci istiqamət üzrə aparılan anket sorğusunun I mərhələsinin nəticəsi**

**cədvəl №1**

| S/s | Müəllimlərə verilən suallar və onların cavabları | Müəllimlərin sayı | Cavabların səviyyələri | | |
|---|---|---|---|---|---|
| | | | bəli | xeyr | Cavab vermədi |
| 1. | Ədəbiyyat dərslərində folklor nümunələrindən istifadə edirsinizmi? | 50 | 50 | - | - |
| 2. | Folklor nümunələrindən hansı məqsədlər üçün istifadə etdiyinizi planlaşdırırsınızmı? | 50 | 10 | 38 | 2 |
| 3 | Azərbaycan folkloru ilə yanaşı, digər xalqların folklor nümunələrindən istifadə edirsiniz? | 50 | 1 | 40 | 9 |

Cədvəl təhlilə cəlb olunarkən müəllif öz qənaətini belə ifadə edir. V-XI siniflərdə dərs aparan ədəbiyyat müəllimlərindən 50 nəfəri sorğuda istirak etmiş, onların hamısı yalnız birinci suala "bəli" cavabı vermişdir. Əlli nəfər ədəbiyyat müəllimlərinin 5 nəfəri folklor nümunələrindən məqsədli şəkildə istifadə etdiyini bildirmiş, cəmi bir nəfər Azərbaycan folkloru nümunələri ilə yanaşı digər xalqların folklor nümunələrindən istifadə etməyi bildirmişdir. İki nəfər ikinci, doqquz nəfər üçüncü suala cavab verməkdən imtina etmişdir.

İkinci istiqamət üzrə yalnız bir mərhələdən ibarət apardığımız anket sorğusunun nəticələri də Azərbaycan Respublikasının orta ümumtəhsil məktəblərində ədəbiyyat müəllimlərinin təlim prosesində Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinə biganə qaldıqlarını əks etdirir. Nəticədə V-XI sinif şagirdləri Türkiyə və Azərbaycan folklorunun milli, ümumtürk, ümumbəşəri dəyərlərə əsaslanan bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməkdən, eləcə də davranışla əlaqədar olan zəngin mənəvi keyfiyyətlərə yiyələnməkdən məhrum olurlar. Əsas səbəb isə V-XI siniflərdə ədəbiyyatı tədris edən müəllimlərin Türkiyə və Azərbaycan folkloru nümunələrinin əlaqəli tədrisinə yer verməmələridir. Belə olan təqdirdə isə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması və inkişaf etdirilməsinə şərait yaranmır. Bu mərhələdə

ədəbiyyat müəllimləri ilə keçirdiyimiz anket sorğusunun nəticələri də bunu daha dəqiqliyi ilə göstərir.

**İkinci istiqamət üzrə aparılan anket sorğusunun nəticələri**

**Cədvəl №2**

| S/s | Ədəbiyyat müəllimlərinə verilən sualların sayı | Sorğuda iştirak edən müəllimlərin sayı | Cavabların səviyyələri | | |
|---|---|---|---|---|---|
| | | | q/qənaətbəxş səviyyəli cavab | Orta səviyyəli | Qənaətbəxş səviyyəli cavab |
| 1. | Türkiyə folkloru nümunələrindən istifadə edirsinizmi? | 60 | 58 | 2 | - |
| 2. | Azərbaycan və Türkiyə folkloru nümunələrinin əlaqəli tədrisindən istifadə edirsinizmi? | 59 | 57 | 2 | - |
| 3. | Azərbaycan və Türkiyə folkloru nümunələrinin əlaqəli tədrisi zamanı Azərbaycan və Türk folklorunun müvafiq növlərindən istifadə edirsinizmi? | 58 | 57 | 1 | - |

Cədvəldən göründüyü kimi, V-XI siniflərdə ədəbiyyat fənnini tədris edən müəllimlərin böyük əksəriyyəti Türkiyə və Azərbaycan folkloru nümunlərinin inteqrasiyasını nəzərə almır:

-nəticədə şagirdlərin estetik bədii zövqlərinin inkişafında ləngimələr özünü göstərir;

-V-XI sinif şagirlərinin türk folklorunun tərbiyəvi cəhətlərindən istifadə etmək imkanları qarşısına sədd çəkilmiş olur;

-yeniyetmə və gənclərin bədii yaradıcılıq qabiliyyətləri inkişafdan qalmış olur.

Fəslin ***"Problemin pedaqoji-psixoloji əsaları"*** adlanan sonuncu-dördüncü yarımfəslində təcrübə və müşahidələrə əsaslanan dissertasiya müəllifi əvvəlcə problemin pedaqoji əsaslarını müəyyənləşdirir. Bu zaman Azərbaycan və Türkiyə folklor nümunələrinə istinad etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına təkan verən ümumpedaqoji tələblər, prinsiplər, üsullar və onların tədbiqi imkanları araşdırılaraq ümumiləşdirilir. Yarımfəsildə göstərir ki, "Uşaqların bədii

yaradıcılıq qabiliyyətlərinin pedaqoji əsasları" deyəndə aşağıdakı şəkildə görüləcək iş sistemi nəzərdə tutulur:

- uşaqların bədii yaradıcılığa cəlb olunmasına verilən pedaqoji tələblərin gözlənilməsi;
- uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi ilə bağlı tətbiq edilən ümumpedaqoji üsulların tətbiq edilmə imkanlarının düzgün müəyyənləşdirilməsi;
- uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması zamanı onların yaş, fərdi, cinsi və psixoloji xüsusiyyətlərinin nəzərə alınması;
- uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin pedaqoji cəhətdən düzgün motivləşdirilməsi;
- uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması zamanı modernləşdirilmiş pedaqoji priyomlardan və ən müsair yollardan istifadə edilməsi;

Məktəblilərin bədii yaradıcılığa istiqamətləndirilməsi zamanı Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadənin psixoloji əsasları da bu yarımfəsildə şərh edilir. Burada uşaqların maraqları, meyilləri, qabiliyyətləri və bunların əsasında püxtələşən istedadları və talantlılıq səviyyəsi elmi şəkildə öz əksini tapır.

Bu yarımfəsildə bədii yaradıcılıq müsabiqələrinə cəlb olunan uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına psixoloji cəhətdən düzgün yanaşmağın imkanları da göstərilir. Tutaq ki, V sinif şagirdlərinin bədii yaradıcılıq müsabiqəsinin ilk turunda seçilən bir şagird aktyorluq qabiliyyətlərinə malik olduğu üçün seçilir. Onunla aparılan məqsədyönlü, planlı və mütəşəkkil işlərin nəticəsində o, talantlı bir şagird kimi üzə çıxır. Sonrakı siniflərdə oxuyarkən səhnə hərəkətləri, tryuklar, jestlər, mimika, səhnə danışığının, nitq mədəniyyətinin tələblərinə, ifadəli nitqin spesifik səs tembrinə uyğunlaşdırılması, personajların daxili aləminin açılması ilə bağlı qazandığı bacarıq və vərdişlər onun talantlılıq səviyyəsini yüksəldir. Hansı ki, bu talantlılıq səviyyəsi onun ciddi fəaliyyətindən nəşət edən qabiliyyətlər kompleksidir. Psixoloqlar göstərirlər ki, hər hansı bir qabiliyyətin ən yüksək mərhələsi talant adlanır. Talant insana mürəkkəb əmək fəaliyyətini müstəqil, müvəffəqiyyətlə və orijinal surətdə icra etməyə imkan verən qabiliyyətlər kompleksidir.

**"Azərbaycan və türk etnopedaqoji materiallarından istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yolları"** adlanan ikinci fəslin ilk yarımfəslində "***Təlim prosesində Azərbaycan və Türkiyə etnopedaqoji materiallarından istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması***

*yolları"*ndan bəhs edilir. Bu yarımfəsildə göstərilir ki, Azərbaycan və Türkiyə etnopedaqoji nümunələrindən təlim prosesində məqsədyönlü, planlı və mütəşəkkil olaraq istifadə etməklə yuxarı sinif şagirdlərinin bədii yaradıcılıq qabiliyyətlərini günün tələbləri səviyyəsində inkişaf etdirmək mümkündür. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması onların intellektual inkişafının təmin olunmasında ən başlıca amil hesab olunur. Orta məktəb illərində, xüsusilə V-XI siniflərdə oxuyan müddətdə şagirdlərin bir qismi poeziyaya, bir qismi nəsr yaradıcılığına, bir qismi dram janrına, teatra, bir qismi təsviri və tətbiqi sənətə, bir qismi xalq musiqisinə, bir qismi isə klassik musiqiyə maraq göstərir. Təcrübə və müşahidələr göstərir ki, uşaqların bir qismi bədii yaradıcılıq nümunələrini dinləməyə, bir qismi şeir deməyə, bir qismi klassik musiqiyə maraq göstərir, uşaqların bir qismi isə bədii yaradıcılıq nümunələrini araşdırmağa, bir qismi rəsm əsərlərini seyr etməyə, bir qismi isə mahnıları, melodiyaları, rəqsləri ifa və icra etməyə meyil edirlər. Bütün hallarda belə uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılmasına, inkişaf etdirilməsinə, formalaşdırılaraq təkmilləşdirilməsinə ciddi səy göstərmək lazımdır.

Yarımfəsildə ədəbiyyat, musiqi, təsviri incəsənət dərslərində Azərbaycan türk folklorunun nümunələrindən istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişafı yolları göstərilir. Bu zaman ədəbiyyat dərslərində dastan yaradıcılığının tədrisi prosesində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşmasına inkan yaradan bir sıra Azərbaycan və türk dastanlarının nümunələrinə istinad edilir. Yarımfəsildə həm Türkiyədə, həm Azərbaycanda şifahi xalq yaradıcılığı nümunəsi kimi qəbul edilən “Muğan xanın nağılı” təhlilə cəlb edilir. Təlim prosesində “Muğan xanın nağılı” şagirdlərin dioloqu vasitəsilə, pedaqoji prosesdə təhlil olunur. Bundan başqa, “Yaradılış”, “Alp Ət Tonqa”, “Oğuz Xaqan”, “Göy türk”, “Ərgənəkon”, “Şu”, “Köç” , Göyçə dastanlarının bədii yaradıcılıq qabiliyyətlərinin aşılanması baxımından imkanları da təhlil edilir. Bu zaman pedaqoji innovasiyaların gücündən istifadə qaydaları da göstərilir. Müəllifin qənaətinə görə, pedaqoji innovasiyanın ən birinci didaktik funksiyası ondan ibarətdir ki, təcrübədə təlim əməyinin təkmilləşdirilməsi zamanı yeniliklərin tətbiqi nəticəsində pedaqoji prosesdə müəllim əməyinin məsrəflərini azaldır, ən yeni didaktik bacarıqların pedaqoji prosesə cəlb olunmasına imkan yaradır, bütün bunlar isə təlimin səmərəliliyini yüksəldir;

- pedaqoji innovasiyanın ikinci didaktik funksiyası inkişafetdirici təlimin keyfiyyətinin yüksəldilməsidir ki, bu da pedaqoji prosesin səviyyəsinin və səmərəsinin yüksəldilməsinə səbəb olur;

- pedaqoji innovasiyanın üçüncü didaktik funksiyası ondan ibarətdir ki, inkişafetdirici təlimin keyfiyyətinin yüksəldilməsi müəllim-şagird münasibətlərinin tənzimlənməsini təmin edir və bu proses pedaqoji prosesdə şəffaflıq yaradır;

- pedaqoji innovasiyanın tətbiqi müəllimlərin elmi potensiallarının üzə çıxarılmasına və inkişaf etdirilməsinə, həm şagirdlərin, həm də müəllimlərin intellektual səviyyələrinin yüksəldilməsinə səbəb olur. Bu isə pedaqoji innovasiyanın dördüncü funksiyasıdır.

Yarımfəslə yekun vurularkən göstərilir ki, məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması işinin məqsədyönlü, planlı və mütəşəkkil olaraq düzgün təşkili yetişən nəslin estetik-bədii zövqlərini günün tələbləri səviyyəsində inkişaf etdirməklə yanaşı, onların intellektual səviyyəsini, istedad potensialını üzə çıxarır və gələcək inkişafını təmin etmiş olur. Bu baxımdan Azərbaycan və Türkiyə folkloru nümunələrinin mütəmadi olaraq elmi-pedaqoji cəhətdən təhlilə cəlb olunması mühüm əhəmiyyət kəsb edir.

İkinci fəslin "***Dərsdən və məktəbdənkənar tədbirlərdə Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması zamanı tərbiyə üsullarından istifadə"*** adlanan yarımfəslində göstərilir ki, Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işində tərbiyə üsullarına istinad olunması vacibdir. Bu zaman inandırma, alışdırma, rəğbətləndirmə və cəzalandırma üsullarına istinad edən müəllif onların nəzəri və praktik əsaslarını da şərh edir. Hər bir üsulun mahiyyətini, nəzəri və praktik əhəmiyyətini göstərən müəllif onların bədii yaradcılıq işindəki əhəmiyyətini də qeyd edir. Müəllif göstərir ki, uşaqların bədii yaradıcılığa istiqamətləndirməsi, əlbəttə ki, onların qabiliyyətlərinin müəyyənləşdirilməsi mərhələsindən sonra həyata keçirilməlidir. Hər hansı yaradıcı qabiliyyətlərə malik olan uşaqları inandırmaq lazımdır ki, onların bədii yaradıcılığın hər hansı bir sahəsində xüsusi istedadı var. Sonra inandırmaq lazımdır ki, bu istedadın inkişafında Azərbaycan və Türkiyə folkloru nümunələrindən bəhrələnməyin rolu böyükdür. Bu zaman uşaqların bədii yaradıcılıqla məşğul olanlarının inandırma üsullarının nəzəri əsaslarını bilmələri çox vacibdir. Belə olan təqdirdə bədii yaradıcılıq fəaliyyətinə cəlb olunan uşaqlarla inandırma üsullarının aşağıdakı sistemi üzrə işləmək olar. Pedaqoji ədəbiyyatda inandırma üsulları bəzən şüur və əqidənin formalaşmasına təsir edən üsullar kimi təsnif edilir. Bu təsnifata öyüd verməklə inandırma; nəsihətləndirməklə inandırma; dilətutmaqla inandırma; yolagətirməklə inandırma; başa salmaqla inandırma; tövsiyələr

verməklə inandırma; fərdi söhbətə cəlb etməklə inandırma; məruzə, mühazirə, disput və müzakirə formalarına cəlb etməklə inandırma üsullarını daxil edirlər. Digər üsulların da tətbiqi qaydalarından bəhs ediləndən sonra yarımfəsil aşağıdakı şəkildə yekunlaşdırılır:

- Dərsdən və məktəbdənkənar tədbirlərdə Azərbaycan və Türkiyə folkloru nümuinələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması zamanı ümumpedaqoji üsullardan məqsədyönlü, planlı, mütəşəkkil olaraq istifadə edilməsi məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərini və dünyagörüşlərini inkişaf etdirmiş olur.

İkinci fəslin "***Bədii özfəaliyyət qruplarında və maraq kurslarında Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadənin imkanları"*** adlanan sonuncu yarımfəsildə həm özfəaliyyət qruplarında, həm də maraq kurslarında Azərbaycan və Türkiyə folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq işinin məzmunu öz əksini tapır. Bu yarımfəsildə bədii özfəaliyyət quruplarından biri kimi yaradıcı dramlar birliyində həyata keçirilən eksperimental işin məzmunu da yer alır. Hazırlanan öyrədici materiallar tətbiq edilərək yoxlanılır və elmi fərziyyənin doğruluğunu sübut etməyə yönəldilir. Öyrədici materiallar içərisində Azərbaycan və Türkiyə folkloru üçün səciyyəvi olan atalar sözlərindən istifadə olunur. Şagirdlərin dili ilə deyilən həmin öyrədici materiallardan biri belə ifadə olunur:

Məsələn, “At ölər nalı qalar, adam ölər namı qalar”, “Acın haramidən nə baki?”, “Aclıq adama oyun öyrədər”, “Əsli bədöv olana qamçı nədir, dəh nədir” “Ağacdan təndir, kürddən övliyə olmaz”, “Olmuş olacaqdan iyidir”, “Oğru ev olmaz, ev sahibini evlikdən salar”, “Uzaq yerin halvasını hövla ilə döyərlər”, “Oğrudan qalanı rəmmal aparar”, “Başaçığın açacağı börkçü dükanıdır”, “Bugünkü öfkə sabahkı quyruqdan yeydir”, “Bildirçinin bəyliyi darı savuluncadır”, “Pişiyin əli ətə çatmaz deyər qoxubdur”, “Tamarzıdan al, dadamala ver”, “Tazının heyzliyidir, dovşan tavada balalayır”, “Həccə gedən gəldi, saca gedən gəlmədi”, “Dərdini gizləyən davasını bulamaz”, “Dəvəni satan koşək ala bilməz, koşəgi satan eşşək”, “Düşmən zəif olsa da, ehtiyatı əldən buraxma”, Ziyan ağudan acıdır“, “Sözün yalanı olmaz, yanlışı olar”, “Su sənəyi suda sınar”, “Şərti şumda kəs, xırmanda şana-kürək sınmasın”, “Kasıb çıxarın bilsə, gündəliyə mahut geyər”, “Kəndi düşən ağlamaz”. Bu atalar sözlərindəki “qılıc”, “nam”, “baki”, “orədər”, “suyuğ”, “dəh”, “iyi”, “hövla”, “börk”, “börkçü”, “ozgə”, “savulmaq”, “bulmaq”, “bulamaz”, “sənəy”, “şana”, “kürək”, “qısraq”, “qısrağa” kimi sözlərə demək olar ki, bütün türk dilli xalqların dilində rast gəlmək olar.

Öyrədici materiallardan bəhrələnən eksperimental qrupların üzvlərinə verilən suallardan aydın olur ki, onlar yaradıcı dramların üzvləri kimi öyrədici materialları yaxşı qavradıqları üçün yuxarı səviyyəli cavablar vermişlər. Alınan nəticə aşağıdakı cədvəldəki kimi olmuşdur:

**Eksperimental qrupun nəticələri**

**Cədvəl 3**

| | Hansı yaradıcı qabiliyyətlərə yiyələndi | İştirakçı şagirdlərin sayı | Yaradıcı qabiliyyətlərin səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | yüksək | orta | aşağı |
| 1. | Bədii əsərləri, o cümlədən folklor materiallarını araşdırıb toplamaq: | 12 | 10 | 2 | 0 |
| 2. | Folklor materiallarını qruplaşdırıb növlərə ayırmaq; | 12 | 11 | 1 | 0 |
| 3. | Atalar sözlərini müəyyənləşdirib təhlilə cəlb etmək; | 12 | 10 | | 0 |
| 4. | Azərbaycan türklərinə məxsus atalar sözlərinin Türkiyə türklərinin atalar sözlərilə oxşar cəhətlərini müqayisə etmək; | 12 | 9 | 3 | 0 |
| 5. | Azərbaycan və Türkiyə atalar sözlərinin tərbiyəvi mahiyyətini şərh edə bilmək; | 12 | 9 | 3 | 0 |
| 6. | Azərbaycan və Türkiyə atalar sözləri nümunələrinin müasir innovasiyalar vasitəsilə təqdim olunmasını və təqdim olunanlara münasibət bildirməyi bacarmaq; | 12 | 10 | | 0 |
| 7. | Folklor nümunələrinin təqdimatı zamanı sözün, musiqinin və təsviri sənətin vəhdətindən yaranan bədii zövq elementlərini, bütövlükdə estetik tərbiyə komponentlərini duymaq, qavramaq və qiymətləndirə bilmək. | 12 | 9 | 3 | 0 |

Eksperimental qruplarla kontrol qrupların müqayisəsinə də yer ayrılır. Məlum olur ki, kontrol quruplarda iş aparılmamış, öyrədici materiallar tətbiq edilməmişdir, sadəcə olaraq nəzarətdə saxlandığı üçün onlara verilən sualları cavablandırmaqda çətinlik çəkmişlər. Sorğuda iştirak edən kontrol qrup üzvlərinin hamısı aşağı səviyyəli cavab vermiş, yalnız kiçik bir qismi

orta səviyyəli cavablarla kifayətlənmişdir. Alınan nəticələr aşağıdakı cədvəldəki kimi olmuşdur.

Yarımfəsildə bədii yaradıcılıq qruplarında, maraq kurslarında həyata keçirilən işlərin məzmunu ilə yanaşı, rəqs dərnəklərində keçirilən işlərin də məzmunu işıqlandırılır. Yarımfəslə yekun vurularkən göstərilir ki;

- bədii özfəaliyyət qruplarında Azərbaycan və Türkiyə folkloru nümunələrindən məqsədyönlü şəkildə istifadə edilməsi məktəblilərin, ilk növbədə, bədii yaradıcılıq qabiliyyətlərinin formalaşmasını təmin etmiş olur;
- maraq kurslarında Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyəti ilə yanaşı, onların estetik bədii zövqlərini də formalaşdırmaq olar.

Tədqiqatla bağlı aşağıdakı **nəticələr** alınmış və bir sıra **təkliflər** irəli sürülmüşdür:

1. Folklor materiallarından istifadə etməklə yetişən nəslin tərbiyələndirilməsi, etnopedaqoji nümunələr əsasında məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmsı daim aktual olduğu üçün belə problemlərin günün tələbləri səviyyəsində tədqiq edilməsi vacib hesab olunur.
2. Şifahi xalq yaradıcılığı materialları içərisində Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasını ilk dəfə tədqiq etməklə problemin aktuallığı gündəmə gətirilmişdir.
3. Problemlə bağlı aparılan genişmiqyaslı tədqiqatlar zamanı ilk dəfə olaraq Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyəti izah edilmiş, məzmunu şərh edilmiş, məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Belə ki:

-problemin qoyuluşu aydınlaşdırılmış,

-pedaqoji ədəbiyyatdakı və məktəb təcrübəsindəki vəziyyəti öyrənilərək təhlilə cəlb edilmiş,

-pedaqoji-psixoloji əsasları sistemə salınmışdır.

4. Problemin təlim-tərbiyə prosesindəki vəziyyəti aydınlaşdırarkən Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılaraq inkişaf etdirilməsi ilə bağlı qüsurlar və onların aradan qaldırılması yolları müəyyənləşdirilmişdir.

5. Təlim prosesində Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yolları müəyyən edilmiş, tətbiqi imkanları ilk dəfə olaraq dissertasiya müəllifi tərəfindən sınaqdan keçirilmişdir.

6. Aparılan eksperimental və sınaq-təcrübə işlərinin nəticələri dissertasiyada qoyulan elmi fərziyyənin doğruluğunu sübuta yetirmişdir.

7. Dərsdən və məktəbdənkənar tədbirlərdə Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırılması işinin məzmunu işlənib hazırlanmış, görülən işlərin nəticələri eksperiment vasitəsilə yoxlanılaraq ümumiləşdirilmişdir.

8. Bədii yaradıcılıq dərnəklərində və maraq kurslarında Türkiyə və Azərbaycan folkloru nümunələrinindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin yeni pedaqoji modeli yaradılaraq tətbiqi yolları göstərilmişdir.

9. Türkiyə və Azərbaycan folkloru mərkəzinin yaradılması yaxşı olardı.

10. Orta ümumtəhsil məktəblərinin nəzdində Türkiyə və Azərbaycan folklor nümunələrindən ibarət sərgilərin açılması məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasını təmin etmiş olar.

11. Azərbaycanın orta ümumtəhsil məktəblərində Türkiyə və Azərbaycan folkloru nümunələri əsasında təşkil olunan konsertlərin, müsabiqələrin, festivalların həyata keçirilməsi yetişən nəslin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması baxımından çox faydalı olardı.

Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri iddiaçının nəşr etdirdiyi aşağıdakı dərc olunan **əsərlərində** öz əksini tapmışdır.

1. Məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin modernləşdirilməsi yolları. ARTPİ, NDU və NMİ. “Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 16-17 dekabr 2014-cü il, Bakı: Mütərcim, 2014, səh. 239-241

2. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin düzgün müəyyənləşdirilməsinin bəzi pedaqoji şərtləri. BSU. Elmi əsərlər. İctimai-siyasi elmlər seriyası, 2014, №1, səh. 84-89

3. “Xosrov və Şirin” əsərində muğam mədəniyyəti və şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasında onların rolu. GDU. Elmi Xəbərlər. 2014, №2, səh. 278-283

4. Folklor nümunələrindən istifadə etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması. NMİ. Xəbərlər. 2014, Cild: 10, №4, səh. 82-86.

5. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin psixoloji əsasları. ARTPİ. Elmi Əsərlər, 2014, №4, səh. 92-96

6. Şagird şəxsiyyətinin formalaşmasında “Muğan xan” əfsanəsi Azərbaycan və türk folklorunun dəyərli qaynaqlarından biri kimi.ADPU, HU, QU. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr olunmuş "Müəllim hazırlama siyasəti və problemləri" V Beynəlxalq konfrans materialları. 30 aprel-02 may. Bakı: 2015, səh. 353-358

7. “Muğan xan” əfsanəsi Azərbaycan və Türkiyə folklorunun dəyərli qaynaqlarından biri kimi. ARTPİ, NDU və NMİ. “Azərbaycanda təhsil quruculuğunun prioritetləri, müasir yanaşmalar” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, Bakı: Mütərcim, 2015. səh. 223-225.

8. Rəqslər mədəniyyəti estetik zövqü və fiziki inkişafı təmin edən bədii yaradıcılıq nümunəsidir. Pedaqogika, 2016, №1, səh. 61-67.

9. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin elmi-pedaqoji əsasları. BDU. Elmi əsərlər ictimai-siyasi elmlər seriyası, 2015, №1, səh. 85-90

10. Məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasında inandırma üsullarının rolu GDU, Elmi xəbərlər. Fundamental, humanitar və təbiət elmləri seriyası, 2015, №3, səh. 269-273

11. “Kitabi-Dədə Qorqud” Türk dünyası məktəblilərinin bədii yaradıcılıq eposu kimi. BSU. Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri. 2012, №4, səh. 346-350

12. Alışdırma üsulları və məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırlmasında onların rolu. Azərbaycan Müəllimlər İnstitutu, Xəbərlər, 2015, №3, səh. 28-33

13. Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yolları. Pedaqoji Universitet Xəbərləri (2016-cı il, iyun ayında) Jurnalının 1-ci sayında çapa hazırlanır.

14. Использованис методов поощрення при форматировании художественно творческнх способностей школьников // Вестннк

московского государственно обпастного университета, №1, серня психологи, Москва, 2016, ст. 93-96

**Джем Сокер Ахмет оглу**

**Формирование способностей художественного творчества учеников с использованием фольклорных образцов Турции и Азербайджана**

**Резюме**

Диссертация состоит из введения, 2 глав, отражающих в себе 7 полуглав, выводов и списка использованной литературы.

В введении обосновывается актуальность темы диссертации и рассматривается уровень разработки поставленной проблемы. Определились цели и задачи исследования, формировались научная новизна и практическое значение работы.

Первая глава называется «Суть, содержание и задачи работы формирования способностей художественного творчества учеников с использованием фольклорных образцов Турции и Азербайджана». В этой главе находит свое отражение содержание работы художественного творчества, которая воплощается в жизнь с использованием совместных возможностей фольклора Турции и Азербайджана. Раскрывается содержание работы формирования способностей художественного творчества учеников с использованием фольклорных образцов Турции и

Азербайджана. Обращается на образцы устного народного творчества Азербайджана и Турции. Здесь выделяется отдельное место на обобщение, изучая состояние исследований, связанных с проблемой, в условиях Азербайджана. Привлекается анализу постановка проблемы и в учебном процессе, и в внеучебных и внешкольных мероприятиях.

Во второй главе, которая называется «Пути формирования способностей художественного творчества школьников с использованием азербайджанских и турецких этнопедагогических материалов»,по-вествуется о путях формирования способностей художественного творчества школьников с использованием Азербайджанских и Турецких этнопедагогических материалов в учебном процессе. Показывается, что целенаправленным и планированным использованием Азербайджанских и Турецких этнопедагогических материалов в учебном процессе можно развивать способности художественного творчества учеников старших классов. В работе по формированию способностей художественного творчества школьников с использованием фольклорных образцов Азербайджана и Турции необходимо опираться на приемы воспитания. В этой главе также находят свое отражение возможности использования фольклорных образцов Азербайджана и Турции в группах художественной самодеятельности и курсах по интересу.

**Jem Ahmet oglu Sokerov**

## Formation of artistic abilities of students with the use of the Turkish and Azerbaijani folklore samples

### Summary

The thesis consists of an introduction, two chapters, reflecting a 7 poluglav, conclusions and bibliography.

The introduction substantiates the relevance of the topic and the thesis examines the level of development of the problem. We define the goals and objectives of the study, formed the scientific novelty and practical value of the work.

The first chapter is called "The essence, content and objectives of formation of abilities of art students with Turkish and Azerbaijani folklore samples". This chapter is reflected the content of the work of art, which is being implemented with the use of collaborative opportunities between Turkey and Azerbaijan folklore. The content

of the work of formation of abilities of art students with Turkish and Azerbaijani folklore samples. It refers to the samples of folklore of Azerbaijan and Turkey. Here, a special place is allocated to the generalization of studying the state of research related to the problem, in terms of Azerbaijan. It involves the analysis and formulation of the problem in the educational process, and in extra-curricular and extracurricular activities.

In the second chapter, entitled "Ways of formation of abilities of art school with the Azerbaijani and Turkish ethnopedagogical materials", tells about the ways of formation of abilities of art school with the Azerbaijani and Turkish ethnopedagogical materials in the educational process. It is shown that focused and plan the use of the Azerbaijani and Turkish ethnopedagogical materials in the learning process, you can develop the ability of art high school students. The work on forming ability of art school students with samples of folklore of Azerbaijan and Turkey should be based on training techniques. This chapter also reflected the possibility of using the samples of folklore of Azerbaijan and Turkey in groups of amateur and courses of interest

**Министерство Образования Азербайджанской Республики**

**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

**Джем Сокер Ахмет оглу**

# Формирование способностей художественного творчества учеников с использованием фольклорных образцов Турции и Азербайджана

**5804.01 – Общая педагогика, история педагогики и образования**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**БАКУ-2016**